**Təhsil sahəsində həyata keçirilən islahatlarla yanaşı, bu sistemdəki çatışmazlıqlar da daim müzakirə mövzusudur. Bəlkə də haqqında ən çox ziddiyyətli fikirlər yürüdülən sahələrdən biri təhsildir. Xüsusən, son vaxtlar məktəblərdə müəllim-şagird münasibətləri ilə bağlı baş verən olaylar bu sahəni daha çox gündəmə gətirib.**

**Respublika Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev ”Bizim qonaq” olarkən bu sferada baş verən məsələlərə münasibətini bildirdi.**

# Əzbərləmədən çox, təfəkkürü inkişaf etdirməyə diqqət yetirməliyik

## Professor Əjdər Ağayev hesab edir ki, təhsil sahəsində təhsildən başı çıxmayan insanlar var





### UŞAQ ŞULUQ SALARSA...

**- Əjdər müəllim, Təhsil Nazirliyi müəllim-şagird münasibətlərinə həsr olunan seminarlara start verib. Keçən həftə Xırdalanda keçirilən tədbirdə çıxış edənlər daha çox münasibətlərdə yaranan problemə görə şagirdləri və hadisəni gündəmə gətirən sosial medianı qınadılar. Bu fikirlərdə nə qədər həqiqət var? Digər tərəfdən, bu cür tədbirlərlə münasibətləri tənzimləmək mümkün olacaqmı?**

- İnsanların sayı qədər müxtəliflik var. Həmçinin insanları birləşdirən hüquq, ictimai davranış normaları və s. kimi vasitələr mövcuddur. Hər hansı vasitə ilə insanları ram edib problemləri istənilən səviyyədə yoluna qoymaq real alınmaz. Əvvəlcə niyə münasibətlərdə kobudluğun yaranmasını öyrənmək lazımdır. Səhiyyədə olduğu kimi, ictimai problemlərdə də diaqnoz qoymaq və kökü tapmaq zəruridir. Əgər bunu edə bilmiriksə onda müəyyən maarifləndirici, istiqamətverici tədbirlərlə kifayətlənməliyik. Təbii ki, bütün məktəblərdə və kollektivlərdə insanlar arasında münasibətlər hamının bir-birini anlayacağı səviyyədə deyil. Müəyyən problemlər və çətinliklər olur, birinin fikri digərinə xoş gəlmir. Təhsil sahəsi isə digər sahələrdən fərqlidir. Əvvəla, ailələr öz uşaqlarını məktəbə və oradakı müəllimə etibar edirlər. Bu etibar da özünü doğrultmalıdır. Təhsil sahəsində əsas vəzifə uşaqlarla işləmək, onlara təhsil və təlim prosesində tərbiyə verməkdir. Bu, onları istər sosial, istər psixoloji, istərsə də mənəvi inkişaf etdirmək baxımından zəruridir. Bunları da həyata keçirən insanların birliyi var. Həm də məktəbin direktoru, onun müavini, sinif rəhbərləri, ictimai təşkilatları fəaliyyət göstərir. Onlar da bu münasibətlərdə mühüm rol oynayırlar. O nöqtələr də lazımi yerində işləməlidir. Amma bəzi məktəblərdə direktorun zəifliyi, idarəedicilik qabiliyyətinin olmaması loyal mühit yaradır - orada kim nə istəyir onu da edir. Bəzi məktəblərdə ictimai təşkilatlar işlədilmir.

**- Bəlkə pedaqoji kadrların peşəkarlıq səviyyəsində problemlər var?**

- Sovet dönəmindən üzü bəri ali pedaqoji kadrların hazırlığı zəifdir. İnsanlar diplom almaq məqsədilə instituta daxil olurlar. Ancaq müəllim olmaq ən böyük vətəndaş olmaq deməkdir. Buna hazır olmaq lazımdır. Bəziləri ”Mən müəllim olmaq istəmirdim, müəllimlik ixtisasını yazdım, bura da düşdüm” - deyirlər. Əgər tələbə müəllim olmaq istəmirsə, universitetdə oxuduğu illər onun üçün ağır əzabdır. Həmçinin istəmədən hazırlaşan adam icraçıya çevrilir. Məsələn, bu gün maşın sürənlərin hamısı icraçılardır - maşın harada xarab olursa, orada da dayanır. Müəllim mənimsəyərək biliklərə yiyələnməli və mənimsədiklərini də tətbiq etməyi bacarmalıdır. Müəllimin işi təkcə proqramdakı dərsi keçmək deyil. Onsuz da bəsit halda hamının sinif haqqında təsəvvürləri var. Müəllimlərimizin səviyyəsi hazırda o dərəcədə yüksək deyil. Düzdür, anadan müəllim doğulanlarımız da var. Mən hələ sovet dövründə ”kim ki, məktəbi ”3” qiymətlə bitirir, onun müəllim ixtisası üzrə işləməsinə imkan vermək olmaz” deyə yazmışdım. Müəllimin insan yetişdirməkdəki qüsurları cəmiyyətdə bəlaya çevrilir. İndi müəllimlər var ki, bədii, tarixi əsər oxumurlar, qəzet-jurnallardan xəbərləri yoxdur. Məktəb kollektivinin özü də bir-birinin işini ümumiləşdirməlidir. Yaxşını üzə çıxaranda o birinə də nümunə olacaq. Bu baxımdan, o cür seminarların əhəmiyyəti var. Müəllim artıq görür ki, onun hərəkəti təhlil olunur və barəsində söz deyilir, o da özünü düzəltməyə, məsuliyyətini artırmağa başlayır. Bu gün Təhsil Nazirliyi ”Nəyi yeni edim?” aspektində işləyir. Əvvəllər belə deyildi. Bu tədbir artıq siqnaldır. Gərək təhsilin tərbiyəvi mühiti olsun. Müəllimlər pedaqogikanı bilmirlər. Biz pedaqogikanın qanunlarını, prinsiplərini, metodlarını müəllimlərə çatdırmamışıq. Problemi tam həll etmək mümkün deyil, ancaq müəyyən xəttə qoymaq mümkündür.

**Müəllimlərimizin səviyyəsi hazırda o dərəcədə yüksək deyil. Düzdür, anadan müəllim doğulanlarımız da var. Mən hələ sovet dövründə ”kim ki, məktəbi ”3” qiymətlə bitirir, onun müəllim ixtisası üzrə işləməsinə imkan vermək olmaz” deyə yazmışdım. Müəllimin insan yetişdirməkdəki qüsurları cəmiyyətdə bəlaya çevrilir. İndi müəllimlər var ki, bədii, tarixi əsər oxumurlar, qəzet-jurnallardan xəbərləri yoxdur.**

**- Müzakirə istənilən halda lazımdır. Çünki bu zaman bir çox məsələlərə aydınlıq gəlir. Ancaq məsələnin digər tərəfi də var: yaxşı şagird nə üçün döyülsün? Bəlkə valideynin məsuliyyətində və şagirdin öz intizamında da müəyyən problemlər var?**

- Nə məktəbin nizamnaməsində, nə təhsil sənədlərində, eləcə də məktəbin etik normalarında uşaq şuluq salarsa, onu döymək adəti yoxdur. Müəllimsənsə səbir və hövsələ sahibi olmalısan. Orta məktəbdə hər cür şagirdə rast gəlmək olur. Onları ram etmək üçün metodikalar var. Bizim ədəbiyyatda da şagirdi döyməklə bağlı heç nə yazılmayıb. Bu, bircə bizim dini ədəbiyyatda, yəni mollaxanalarda olub. Dünyəvi məktəblərdə isə uşağı döyməklə bağlı heç bir metod yoxdur. Çünki insan insanı nə təhqir edə, nə də fiziki cəza verə bilər. Hətta, əgər uşaqlar nadinc olsalar belə, onun metodikasını tapıb onları ram etmək mümkündür.

**- Sumqayıt məktəbində şagirdin döyülməsi faktı ilə bağlı məlum fakt sosial şəbəkələrdə müzakirə olunan zaman müəllimə haqq qazandıranlar da az deyildi. Yəni cəmiyyətdə ”lazım olanda müəllim döyə bilər” düşüncəsi də var.**

- O valideyn ki, uşağının öhdəsindən gələ bilmir, müəllimin döyməsini istəyir. Elə bilir ki, bununla müəllim ona yardımçı olacaq. Digər bir qrup var ki, təhsilin elmini bilmirlər. Pedaqogikada uşağı cəzalandırmaq normaları var: danlaq, tənbeh, sinifdə yerini və ya sinfini dəyişmək, valideynini çağırıb söhbət etmək, gündəliyinə yazıb valideynin diqqətinə çatdırmaq və s. Amma heç bir halda fiziki təzyiq yoxdur. Çünki bu gün uşaqların səhhətində də problemlər var. Bəzən uşaqların intihar hallarına rast gəlinir. Ali məktəbə qəbul olmayıb özünü öldürənlər də olur. Bu, valideynin günahıdır. Mən bu yaşda 20 yaşlı uşaqdan fiziki baxımdan sağlam və dözümlüyəm. Ona görə də uşağın başına tumar çəkmək lazımdır ki, ürəklənsin və müsbət enerji ilə inkişaf eləsin.

### SABAHIN İNSANI

**- Bizim təhsil sistemi bir növ eksperimental laboratoriyanı xatırladır. Adicə dərsliklərə baxıb ”bu eksperimentlər nə qədər davam edəcək?” deyə fikirləşirsən. Nə vaxta qədər ümid edək ki, nəhayət, təhsilimiz barədə yalnız xoş sözlər eşidəcəyik?**

- Təhsilimizi yeni dövrün tələblərinə uyğun qurmalıyıq. İstər texniki-texnoloji, istərsə də bazar münasibətləri ona uyğun olmalıdır. Nə dəyişir dəyişsin, mənəvi tərbiyə məsələləri dəyişməməlidir. Bu gün bizim mənəviyyata aid misallarımızın hamısı kapitalizm dövründə yarananlardır. Bu gün də mənəviyyat sanki sükançıdır. Ancaq biz bu gün bu sükanı əldə saxlaya bilmirik. Dərsliklərə gəlincə, onların çoxunu, xüsusən ibtidai sinif dərsliklərini pedaqogikanı bilməyən, fənnə bələd olmayan adamlara tapşırırlar. Məsələn, 1-4-cü sinif ”Riyaziyyat” kitabının əsas müəllifi Politexnik İnstitutunu bitirən mühəndisdir. Bu adamın dərslik işindən xəbəri yoxdur. O, nəşriyyat direktorudur və tenderdə nəşri udub. Satınalmaların qaydasına görə, udan adam kitabı da hazırlamalıdır. O da özünü həmmüəllif edib. Alman kitablarından götürdüyünü əsaslandırır və ”qoy bizim uşaqlarımız da alman kitabı oxusun” deyir. Bu, çox gülünc yanaşmadır. Təhsilin kökü var. Bizə alman uşağı lazım deyil. Xaricdən yaxşı olanı gətirib özününküləşdirmək lazımdır. Təhsil bir nömrəli ideoloji məsələdir. Bütün kitablarda sənin milli-mənəviyyatın, tarixin, ənənələrin öz əksini tapmalıdır. Bunun formasını tapmaq lazımdır. Dərsliklərin əsas qüsuru müəlliflərin metodiki savadının zəifliyi və zəhmət çəkməmələri ilə bağlıdır. Əgər ”Azərbaycan dili”, ”Oxu” kitabı yazılırsa, onu yazan adam uşaq ədəbiyyatını mükəmməl bilməli, bütün yeniliklərin, köhnəliklərin hamısını seçməlidir. Mən nazirliyə də təklif etmişəm ki, dərsliklərin yazılması ilə bağlı müsabiqə elan edilsin. Dörd-beş nəfərin təklifi seçilsin və çap olunsun. Çap olunmamışdan əvvəl həmin dərslik geniş müzakirə də olunmalıdır. Burada bir məsuliyyət də müəllimin üzərinə düşür. Əvvəl deyirdilər ki, proqram necə var elə də getməlidir. İndi isə belə deyil. Standartlar tərbiyə ilə və biliyin həcmi ilə bağlıdır. Qalanını müəllim özü etməlidir.

**- Müstəqilliyin ilk illərində bizdə xarici ölkələrin bir neçə orta məktəbləri fəaliyyətə başladı və təhsil ocaqlarının şagirdləri öz dünyagörüşləri və intizamları ilə seçilirdilər. Bizim məktəblərdə sanki bu keyfiyyətlər çatışmır...**

- Qafqaz Universitet də o təhsil ocaqları sırasına daxildir və mən orada dərs deyirəm. Burada əsas xüsusiyyət uşaqlara müstəqilliyin verilməsidir. Məsələn, bu universitetdə tələbə klubu, dram dərnəyi var. Onlar dram əsərləri səhnələşdirirlər. Hətta, bugünlərdə Anarın ”İlin son gecəsi” əsərini Rus Dram Teatrında səhnəyə qoydular. Bu cür fəaliyyət uşağı inkişaf etdirir. İndi əvvəlki dövr deyil, informasiya mənbələri boldur. Sən əsasını qoyursan, qalanını uşaq özü tapmalıdır. Bir də ictimai işlərdə işləmək uşaqlardakı müsəlman utancaqlığını aradan qaldırır. Həmin şəbəkəyə daxil olan orta məktəblərdə də vəziyyət eynidir. Bunun əsas məğzi yenə müəllimlərin tədris prosesində şagirdlərə şəxsiyyət kimi hansı səviyyədə baxmalarıdır. Mənim qarşımdakı şagird sabahın insanıdır.

### ÇOXU MƏKTƏBLƏ RƏFTARI BİLMİR

**- Sizcə, repetitorluğa nə vaxtsa son qoyulacaqmı? Orta məktəblər nəhayət, şagirdə elə bir təhsil verəcəkmi, valideyn üçün repetitor axtarmaq qayğısı yaranmasın?**

- Bu, çox ciddi məsələdir. İndi bununla bağlı yeni layihələr həyata keçirilir. Xüsusən məktəblərdə təmayüllü siniflərin yaradılması bu istiqamətdə atılan düşünülmüş addımlardır. 12 illik təhsil sistemində xüsusən, 12-ci il ali məktəbə hazırlıq xarakteri daşıyacaq. Həmçinin nazirliklə TQDK-nın birləşməsi təklifi var. Buraxılış imtahanı ilə qəbul imtahanı eyniləşəcək. Biz bu təklifi çoxdan vermişik. İndi bu məsələni reallaşdırırlar. Əgər ali məktəbə qəbul qorxusu sıradan çıxsa, buraxılış imtahanı ilə ümumiləşsə, bu həyəcan xeyli azalacaq. Digər tərəfdən, təhsil 12 illik olanda repetitorluq missiyasının müəyyən qismi məktəbdə həyata keçiriləcək və əlavə hazırlıq yığışdırılacaq. Mən repetitor tanıyıram ki, məktəbdə dərsini normal keçə bilmir. Repetitorluq dəbə düşüb. Məktəb güclü olsa, bunların hamısı yığışacaq. Burada əsas məsuliyyət müəllimin üzərinə düşür - müəllim hazırlıqlı olmalıdır. Əlbəttə, burada müəllimin əmək haqqı məsələsi də vacib şərtdir. Müəllimin əmək haqqı normal olmalıdır ki, gözü başqa yerdə olmasın. Valideynlərin çoxunun da maariflənməyə ehtiyacı var. Çoxu məktəblə rəftarı bilmir. Maarifləndirmə lazımi qaydada deyil. Valideyn uşağının peşə seçimi üçün düzgün fikirləşməlidir. Bankdan kredit götürüb uşağı repetitor yanına göndərirlər. Ancaq bəzən uşağı peşə məktəbinə yönəltmək daha düzgün addım olardı.



**- Ümumiyyətlə, peşə məktəblərində hazırkı vəziyyət necədir? Valideynlər övladlarını peşə istiqamətinə yönəltməkdənsə, daha çox ali məktəblərə daxil olması üçün cəhd göstərirlər. Fikirlər var ki, peşə-təhsil məktəbləri xüsusən regionlarda yaxşı təhsil vermir. Təhsil Nazirliyi bu sahədə rasionallaşdırma aparır. Bu, bir nəticə verəcəkmi?**

- Mənə elə gəlir ki, Təhsil Nazirliyi ona görə rasionallaşdırma aparır ki, regionlarda olan peşə məktəbləri maddi-texniki təminatla, kadr potensialı ilə təmin olunsun. Bəziləri deyir ki, texniki peşə məktəbləri azaldılır, ancaq bu, azaldılma deyil. Hər regionun özünün sosial tələbatı var. Bizim taxıl, pambıq əkən sahibkarlarımız aqronomluğu bilmirlər. Onlara aqronom lazımdır. Mal-qara saxlayırlar - zootexnikləri yoxdur. Onlara zootexnik lazımdır. Ona görə hər regionda böyük həcmdə peşə məktəbləri yarananda peşə məktəbləri regionun təsərrüfat subyektlərini kadrlarla təmin edəcək. Bu da dövlətin sosial-iqtisadi inkişaf proqramına uyğundur.

### PEDAQOJİ İŞ ŞABLON TANIMIR

**- Qanunvericiliyə edilən dəyişikliyə əsasən, magistr təhsilinin iki- elmi və tətbiqi istiqamətləri olacaqdır. Sizcə, bu, təhsilə töhfə verəcəkmi?**

- Mən bu barədə eşitdim və düşündüm. ”Təhsil haqında” qanunda ali təhsilin iki pillədən - bakalavriat (ixtisas təhsili) və magistraturadan (ixtisasla yanaşı ilk elmi dərəcə) ibarət olması yazılıb. İndiki təklif Təhsil qanununda yoxdur. AMEA belə bir təşəbbüslə çıxış edib. Elə bilirəm ki, magistraturaya daxil olanlar içərisində hazırda hər 100 nəfərdən bəlkə də 50-60-ı lazımi bilik səviyyəsində deyil. Ancaq onlar magistraturaya daxil olurlar. Bəlkə buna görə bu pilləni iki pilləli edirlər. Elə bilirəm ki, burada pedaqoji yanaşma pozulur. Onsuz da magistraturanı qurtarandan sonra kimin qabiliyyəti varsa, o da elmin arxasınca gedir. Ona görə mən bu cür yanaşmaya ehtiyac hiss etmirəm. Bu, təbii yanaşma ilə seçilməlidir. Bəlkə onun elə qabiliyyəti açılacaq ki, sən onu ixtisasa qoymusan, amma o, istəyir elmin dalıyca getsin. Bu baxımdan, sözügedən təklifi məqbul saymıram.

**Dərsliklərə gəlincə, onların çoxunu, xüsusən ibtidai sinif dərsliklərini pedaqogikanı bilməyən, fənnə bələd olmayan adamlara tapşırırlar. Məsələn, 1-4-cü sinif ”Riyaziyyat” kitabının əsas müəllifi Politexnik İnstitutunu bitirən mühəndisdir. Bu adamın dərslik işindən xəbəri yoxdur. O, nəşriyyat direktorudur və tenderdə nəşri udub. Satınalmaların qaydasına görə, udan adam kitabı da hazırlamalıdır. O da özünü həmmüəllif edib.**

**- Kurikulum necə, özünü doğrultdumu? Doğrudanmı, kurikulum təhsildə ən müasir proqramdır?**

- Çoxları kurikulumu metod kimi başa düşür, amma kurikulum metod deyil. Kurikulum proqram, tədris planı, qiymətləndirilmə konsepsiyası və texnologiyaları əks etdirən sənədlərin cəmidir. Pedaqogikanı bilmədiklərinə görə biri bunu ”metod”, biri ”kurikulum sistemi” kimi adlandırır. Bu sənədin içərisində yeni məsələlər, məzmun yenilikləri, standartlar var. Bunların heç biri yeni deyil - köhnədən mövcud olanların yeni adla ifadəsidir. Vaxtilə tədris proqramları vardı ki, orada sistemli şəkildə mövzular göstərilirdi. Axırda da proqramda ”Hansı bilik və bacarıqlar aşılanmalıdır” sözləri yazılırdı. Dünya Bankı bunu xarici təcrübə olaraq Azərbaycana ötürdü. Hələ orta əsrlərdə - Nəsrəddin Tusinin əsərlərində müzakirə, disput, mübahisə və s. mövzuların hamısı var. Yeni olan elm və texnikadır. Mən 60-cı illərdə o vaxtkı texnikadan istifadə edirdim, indi onların hamısını bir kompyuter əvəz edir. Yeni olan ancaq budur. İnsanlar inkişaf edir, informasiyalar artır. O vaxtı bu layihələri də yeniləşmə adı ilə gətirdilər. Onda mən kollegiyada çıxış edib ”Əvvəla, təhsil proqramları sözü var. Bunu qəbul etməyən ölkə çoxdur. Biz varislik gözləmək əvəzinə, nəyə lazımdır ki, müasirləşməyə can ataq?” - dedim. Bu layihələrin arxasında pul dayanırdı. Müəllimin kurikulumu ideolizə etmək tezisi anti-pedaqoji tezisdir. Müəllimlər çaş-baş qalıblar. Kurikulum haqqında ”metod” deyən insanların pedaqogikadan xəbərləri yoxdur. Mən hər hansı bir işin səmərəliliyini o müəllimin tətbiq etdiyi metodlarda və yaradıcılıqda görürəm. Pedaqoji iş şablon tanımır. Təhsil sahəsində də təhsildən başı çıxmayan insanlar var. Mən yeniləşmənin tərəfdarıyam. Amma Avropadan gətirilən o sənədlərin içərisindəki metodları biz özümüz həmişə tapmışıq. Birdən-birə Amerikanın təlimlərinə hoppanmışıq. Guya kurikulum adı olmasaydı biz yeniliyi tətbiq etməyəcəkdik? Yaxşı olan şeylər çoxdur. Əzbərləmədən çox, təfəkkürü inkişaf etdirmək meyilləri olmalıdır. Mən bunun tərəfdarıyam.

### XEYİRXAH FİKİR, XEYİRXAH SÖZ VƏ XEYİRXAH ƏMƏL

**- Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi zamanı aşağı bal toplayanlar da eyni qayda ilə dərslərinə davam edirlər. Ortada hər hansı fərqi olmalıdırmı?**

- Əgər müəllimin qiyməti qeyri-kafiyə düşürsə, əslində o, bir illik və ya ilyarımlıq ixtisas kursu keçlməlidir. Bu kursları keçdi-keçmədi Bakı şəhəri üzrə hamısının əmək haqqını artırırlar. Amma regionlarda belə deyil - keçməyənləri artım siyahısına daxil etmirlər. Yəni qiymətləndirmədən keşməyən müəllim keçmişdə aldığı maaşı ilə qalır. Əgər dəyərləndirmədə fərqlər yoxdursa, onun effekti ola bilməz. Dəyərləndirmə fərqləri üzə çıxarmaq üçündür. Əmək haqları diferensial verilməlidir. Müəllim var ki, gözəl alim və ustaddır, müəllim də var ki, sinfə gəlib nağıl danışıb gedir. Qiymətləndirmədə onları fərqləndirmək lazımdır. Təhsil Nazirliyi niyə diaqnostik qiymətləndirməni tətbiq etdi? Nazirlik müəllimlərin əmək haqqını artırmaq istəyəndə Maliyyə Nazirliyi ”Bizim elə büdcəmiz yoxdur” - deyə etiraz etmişdi. Nazirlik də müəllimlərə faydalı olsun deyə bu yoldan istifadə etmək istədi. Yəni bu, müəllimlərin hissə-hissə əmək haqqının artırılması üçün bir yol idi. İndi bir az üsul dəyişib. Qeyri-kafi qiymət alanlara ”gələn dəfə gəlib keçərsiniz” - deyirlər. Hər halda diaqnostik qiymətləndirmənin faydası var: müəllim öz üzərində düşünür, hazırlaşır.

**- Sizin elmi tədqiqatlarınız vətəndaşlıq borcu ilə bağlıdır. Biz onu bir az geniş anlamda İNSAN kimi dəyərləndirək. Obyektiniz olan insan dəyişəcəkmi?**

- Mənim elmi işlərim insan konsepsiyası, şəxsiyyətin formalaşmasıdır. Digər kiçik tədqiqatlarım da şagirdlərin vətəndaşlıq borcu, tərbiyəsi mövzusudur. Müəllimlər qarşılarındakı uşaqlara şəxsiyyət kimi yanaşmağa borcludurlar. İndi buna şəxsiyyətyönümlü təlim deyirik. Biliklər lazımdır, ancaq bizim vətənə daha çox vətəndaşın mövqeyini başa düşən insan lazımdır. Mən həmişə deyirəm ki, insanları ali məktəblərə qəbul edilməsi ilə deyil, vətəndaşlıq dəyəri ilə ölçün. Əgər mən hər şeyin yaxşı olduğunu desəm, bu, vətənpərvərlik deyil. Mən həmişə deyirəm: təhsil adadır, cəmiyyət isə dərya. Onların havası bir-birinə uyğun olmalıdır. Bu gün müsbət insan keyfiyyətləri formalaşdırmağın kökündə xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl dayanır.

**Təranə Məhərrəmova**